# İQTİSADİYYATIN RƏQƏMSALLAŞMASININ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN İNKİŞAFINA TƏSİRİ: AZƏRBAYCAN TƏCRÜBƏSİ VƏ QLOBAL YANAŞMALAR

**Rəhimə Nurəli NURƏLİYEVA**
i.e.n. dos.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

**Orxan Emin ƏLİYEV**
Magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: orxan.aliyev2015.or@gmail.com

**Received:** 7 January 2026 **Revised:** 25 February 2026 **Accepted:** 5 March 2026

**UOT:** 338 **JEL: F14, O33, O24** **DOİ:**https://doi.org/10.32010/DXRY8804

**Xülasə:** İqtisadiyyatın rəqəmsallaşması müasir dövrdə qlobal ticarətin dinamikasını dəyişdirən əsas amillərdən birinə çevrilmişdir. Bu məqalədə iqtisadiyyatın rəqəmsal transformasiyasının xarici ticarət əlaqələrinin inkişafına təsiri təhlil edilir. Tədqiqatda mövzunun aktuallığı vurğulanır, rəqəmsal iqtisadiyyat anlayışının elmi-nəzəri əsasları araşdırılır və rəqəmsallaşmanın xarici ticarətə müsbət təsirini göstərən qlobal meyllər nəzərdən keçirilir. Dünya təcrübəsi göstərir ki, rəqəmsal texnologiyaların tətbiqi ticarət əməliyyatlarının xərclərini azaldır, elektron kommersiya və onlayn platformalar vasitəsilə yeni ixrac imkanları yaradır. Bu isə qlobal bazarlarda rəqabət mühitini dəyişir və daha çevik iqtisadi strukturların formalaşmasına şərait yaradır. Məqalədə Azərbaycan təcrübəsinə xüsusi diqqət yetirilir: ölkədə elektron hökumət, rəqəmsal ticarət qovşağı və "vahid pəncərə" kimi təşəbbüslərin xarici ticarətin səmərəliliyinə təsiri qiymətləndirilir. Aparılmış təhlillər göstərir ki, Azərbaycan rəqəmsal transformasiya sahəsində əhəmiyyətli irəliləyişə nail olmuş, ticarətin asanlaşdırılması üzrə yüksək göstəricilər əldə etmişdir. Həmçinin bu proses qeyri-neft sektoru üzrə ixrac imkanlarının genişlənməsinə də müsbət təsir göstərmişdir. Rəqəmsal mühitin hüquqi və texnoloji əsaslarının təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Eyni zamanda, nəticələr əvvəlki tədqiqatların nəticələri ilə müqayisə edilir və gələcək tədqiqatlar və siyasət üçün tövsiyələr verilir.

**Açar sözlər:** rəqəmsal iqtisadiyyat; rəqəmsallaşma; xarici ticarət; elektron ticarət; Azərbaycan; rəqəmsal transformasiya; ticarətin asanlaşdırılması

## Giriş

İqtisadiyyatın rəqəmsallaşması XXI əsrdə iqtisadi inkişafın və qlobal ticarətin əsas istiqamətlərindən biri kimi ön plana çıxmışdır. "Rəqəmsal iqtisadiyyat" anlayışı ilk dəfə 1990-cı illərin ortalarında elmi dövriyyəyə daxil olmuş və o dövrdən etibarən iqtisadiyyatın bütün sahələrinə nüfuz etməyə başlamışdır. Məsələn, amerikalı tədqiqatçı N. Negroponte 1995-ci ildə rəqəmsal texnologiyaların iqtisadiyyatda oynadığı rolu vurğulayaraq, cəmiyyətin "rəqəmsal eranın" astanasında olduğunu göstərmişdir. Həmin illərdə D. Tapscott da rəqəmsal iqtisadiyyatın və şəbəkə intellektinin vəd etdiyi imkanları və potensial təhlükələri təhlil etmişdir. Bu kimi fundamental işlər rəqəmsal iqtisadiyyatın konseptual əsaslarını formalaşdıraraq göstərdi ki, informasiya-kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqi nəticəsində yeni iqtisadi münasibətlər sistemi yaranır.

Rəqəmsal iqtisadiyyatın aktuallığı onun iqtisadi artıma və rəqabət qabiliyyətinə təsirindən

irəli gəlir. İnnovativ informasiya və kommunikasiya texnologiyaları (İKT) həlləri istehsalın, xidmətlərin və ümumiyyətlə biznes proseslərin təşkili mexanizmlərini köklü şəkildə dəyişir. Xüsusilə internet texnologiyaları və rəqəmsal platformalar coğrafi məsafələrin əhəmiyyətini azaltmaqla qlobal bazarlara çıxışı asanlaşdırır və bizneslər üçün yeni ixrac imkanları yaradır. Bu proses nəticəsində rəqəmsallaşma beynəlxalq ticarət əlaqələrinin xarakterini yenidən formalaşdırır və elektron ticarətin həcmi sürətlə artır.

Qlobal miqyasda elektron ticarət satışlarının həcmi 2025-ci ildə təxminən 6,4–6,9 trilyon ABŞ dolları səviyyəsinə çatacağı proqnozlaşdırılır ki, bu da 2024-lə müqayisədə artım deməkdir və ümumi pərakəndə satışların təxminən 20–21 faizini təşkil edir. Beləliklə, artıq hər beş pərakəndə satışdan biri onlayn kanallar vasitəsilə həyata keçirilir ki, bu da rəqəmsallaşmanın qlobal ticarətdə artan rolunu əks etdirir. 2024-cü ildə elektron ticarətin qlobal pərakəndə bazarda payı 20,1% səviyyəsində olmuşdur və bu göstəricinin 2025-də 21%-ə yaxınlaşacağı proqnozlaşdırılır.

Bu artım rəqəmsal platformalar və onlayn ödəniş sistemlərindən istifadə üzrə genişlənən imkanlar, mobil ticarətin yüksəlişi və beynəlxalq istehlakçıların onlayn alış-verişə meylinin getdikcə artması ilə izah edilir. Nəticədə, elektron ticarətin davamlı şəkildə genişlənməsi qlobal iqtisadi artımı dəstəkləyən əsas amillərdən birinə çevrilmişdir.

Mövzunun elmi və praktiki əhəmiyyəti ondan ibarətdir ki, rəqəmsal transformasiya ənənəvi xarici ticarət modellərinə yeni məzmun verir. Rəqəmsal texnologiyalar vasitəsilə informasiya mübadiləsinin sürətlənməsi, sənədləşmənin elektronlaşdırılması və logistika proseslərinin optimallaşdırılması xarici ticarətin hər bir mərhələsini daha effektiv edir. Tədqiqatın məqsədi iqtisadiyyatın rəqəmsallaşmasının xarici ticarət əlaqələrinin inkişafına təsirini həm qlobal yanaşmalar, həm də Azərbaycan nümunəsi üzərindən təhlil etməkdir. Bu məqsədə nail olmaq üçün məqalədə bir tərəfdən rəqəmsal iqtisadiyyatın və elektron ticarətin nəzəri aspektləri və qlobal trendləri araşdırılır, digər tərəfdən isə Azərbaycan iqtisadiyyatında rəqəmsal transformasiya prosesləri və onların xarici ticarət göstəricilərinə təsiri qiymətləndirilir. Tədqiqatın metodologiyası kimi müqayisəli təhlil, statistik məlumatların incələnməsi və ədəbiyyat araşdırması istifadə olunmuşdur. Məqalədə mövzu ilə bağlı son dövr elmi mənbələrinə (Web of Science, Scopus kimi beynəlxalq indeksli jurnallarda nəşr olunmuş məqalələrə) istinad edilmiş, həmçinin aidiyyəti beynəlxalq təşkilatların (OECD, WTO, UNCTAD və s.) hesabat və indekslərindən faydalanılmışdır. Tədqiqatın məhdudiyyəti ondan ibarətdir ki, rəqəmsal iqtisadiyyatın bəzi göstəricilərinin ölçülməsi üzrə statistika yenidir və ya məhduddur. Bununla belə, mövcud məlumatlar əsasında əsas tendensiyalar müəyyən edilmiş və nəticələr çıxarılmışdır. Giriş hissəsindən sonra məqalədə mövzunun nəzəri əsasları və dünya təcrübəsi, daha sonra isə Azərbaycan misalında empirik təhlillər təqdim olunur.

## Ədəbiyyat icmalı

Rəqəmsal iqtisadiyyat və onun beynəlxalq ticarətə təsiri son illərdə iqtisadi tədqiqatların əsas istiqamətlərindən birinə çevrilmişdir. İlk nəzəri yanaşmalar N. Negroponte və D. Tapscott kimi tədqiqatçıların əsərlərində formalaşmış və rəqəmsal texnologiyaların iqtisadi münasibətləri dəyişdirən əsas amil olduğunu göstərmişdir. Sonrakı tədqiqatlarda rəqəmsallaşmanın beynəlxalq ticarətə təsiri daha geniş şəkildə araşdırılmışdır. Bir sıra müəlliflər qeyd edirlər ki, rəqəmsal texnologiyaların tətbiqi informasiya mübadiləsini sürətləndirir, əməliyyat xərclərini azaldır və yeni ixrac imkanları yaradır. Elektron kommersiyanın inkişafı isə istehsalçı ilə istehlakçı arasında birbaşa əlaqə yaradaraq xüsusilə kiçik və orta müəssisələrin qlobal bazarlara çıxışını asanlaşdırır [9], [11].

Beynəlxalq təşkilatların hesabatlarında da göstərilir ki, rəqəmsal infrastrukturun inkişafı və elektron ticarətin genişlənməsi ölkələrin ticarət dövriyyəsinin artmasına müsbət təsir göstərir. Rəqəmsal əlaqəlilik səviyyəsinin yüksəlməsi ticarət xərclərini azaldır və sərhədlərarası əməliyyatların daha sürətli həyata keçirilməsinə şərait yaradır. Eyni zamanda süni intellekt, böyük məlumatlar və blokçeyn kimi texnologiyaların tətbiqi qlobal təchizat zəncirlərinin daha səmərəli və şəffaf fəaliyyətinə imkan verir. Bununla yanaşı, bəzi tədqiqatlarda rəqəmsal uçurumun hələ də mövcud olduğu və inkişaf etməkdə olan ölkələrdə rəqəmsal infrastrukturun məhdudluğunun ticarətin genişlənməsinə maneə yarada bildiyi qeyd olunur. Ümumilikdə, mövcud ədəbiyyat

rəqəmsallaşmanın xarici ticarətin inkişafını sürətləndirən mühüm amil olduğunu təsdiq edir.

**Nəticələr və müzakirə**

**Rəqəmsal iqtisadiyyat və xarici ticarət: nəzəri yanaşmalar və qlobal meyllər**

Rəqəmsal iqtisadiyyatın formalaşması iqtisadi fəaliyyətin demək olar ki, bütün sahələrinə sirayət edərək yeni iqtisadi münasibətlər sistemi yaratmışdır. Ümumi şəkildə rəqəmsal iqtisadiyyat dedikdə, rəqəmsal texnologiyalar vasitəsilə dəyərin yaradılması, ötürülməsi və istehlakı başa düşülür [5]. Rəqəmsal mühitdə məlumat əsaslı qərarvermə, elektron ödəniş sistemləri, avtomatlaşdırılmış istehsal və onlayn platformalar aparıcı rol oynayır. Bu xüsusiyyətlər xarici ticarətdə də özünü göstərir. Xüsusilə, elektron kommersiyanın yüksəlişi ənənəvi ticarət zəncirini dəyişdirərək istehlakçılarla istehsalçıları birbaşa əlaqələndirməyə imkan verir. Bu, xarici bazarlara çıxışı asanlaşdırır və kiçik və orta ölçülü müəssisələrin (KOB) beynəlxalq ticarətdə iştirakını stimullaşdırır. Aparılmış araşdırmalar göstərir ki, rəqəmsallaşmanın təsiri ilə informasiya assimmetriyası azalır və KOB-lar rəqəmsal platformalar sayəsində daha geniş coğrafiyaya məhsul və xidmət sata bilirlər [14]. Bu da ölkələrin xarici ticarət əlaqələrinə daha çox sahibkarın qoşulması deməkdir.

Rəqəmsallaşma xarici ticarət əməliyyatlarının xərclərinə və sürətinə ciddi təsir göstərir. Rəqəmsal texnologiyalar sayəsində sərhədlərarası ticarətdə tələb olunan sənədlərin elektron mübadiləsi, gömrük bəyannamələrinin onlayn təqdim edilməsi, ödənişlərin elektron həyata keçirilməsi mümkündür. Bu, həm vaxt itkisini, həm də inzibati xərcləri əhəmiyyətli dərəcədə azaldır. OECD tədqiqatlarının nəticələrinə əsasən, rəqəmsal əlaqəlilik səviyyəsinin artması beynəlxalq ticarət xərclərinin azalmasına mühüm təsir göstərir; rəqəmsal ticarət üzrə siyasətlərin təkmilləşdirilməsi isə ticarət həcmlərinin artımına əhəmiyyətli təkan verir. Eyni zamanda, ticarət sazişlərinə rəqəmsal ticarət üzrə xüsusi müddəaların daxil edilməsi ənənəvi ticarət razılaşmalarının təsirini ikiqat artırmaq potensialına malikdir [7]. Bu qənaət göstərir ki, ölkələr rəqəmsal ticarətin inkişafını dəstəkləyən tənzimləmələri tətbiq etməklə xarici ticarət əlaqələrini gücləndirə bilərlər.

Qlobal miqyasda aparılmış son tədqiqatlar göstərir ki, rəqəmsal infrastrukturun inkişafı və sərhədaşırı elektron ticarətin genişlənməsi ixrac və idxal əməliyyatlarını əhəmiyyətli dərəcədə artırır, ticarət xərclərini azaldır və ölkələrarası inteqrasiyanı gücləndirir. 2023–2024-cü illər üzrə beynəlxalq hesabatlara əsasən, rəqəmsal texnologiyaları aktiv tətbiq edən ölkələrdə ticarət dövriyyəsinin artım tempi daha yüksək olmuşdur ki, bu təsir xüsusilə inkişaf etməkdə olan iqtisadiyyatlarda daha aydın müşahidə edilir [12], [13].

Rəqəmsal texnologiyaların tətbiqi beynəlxalq ticarətdə “məsafə” amilinin maneə təsirini azaltdığı üçün ölkələrarası fərqlərin ticarətə mənfi təsiri zəifləyir. Müasir tədqiqatlarda göstərilir ki, rəqəmsallaşma ölkələr arasındakı coğrafi və institusional uzaqlığın ixrac və idxala mənfi təsirini qismən neytrallaşdırır [1]. Bu o deməkdir ki, internetin geniş yayılması, rəqəmsal ödəniş sistemləri və real vaxt rejimində kommunikasiya imkanları dünyanın müxtəlif nöqtələrini daha sıx iqtisadi əlaqələrlə birləşdirir. Həmçinin, böyük həcmli məlumatların (Big Data) analizi, süni intellekt və blokçeyn kimi texnologiyalar ticarət prosesinin yeni mərhələyə yüksəlməsinə şərait yaradır. Yükün izlənməsi, mənşə sertifikatlarının elektron yoxlanılması, təchizat zəncirinin optimallaşdırılması kimi sahələrdə bu texnologiyaların tətbiqi ticarətdə şəffaflığı və etibarlılığı artırır [2]. Nəticə etibarilə, rəqəmsallaşma qlobal tədarük zəncirlərinin dayanıqlığını gücləndirir və xarici ticarət əməliyyatlarını daha da sürətləndirir.

Bununla yanaşı, 2025-ci il məlumatları göstərir ki, rəqəmsal transformasiya ölkələr arasında hələ də eyni intensivliklə irəliləmir və bu fərqlər qlobal ticarət sistemində struktur disbalanslar yaradır. İnkişaf etmiş iqtisadiyyatlar rəqəmsal ticarət infrastrukturunu daha erkən formalaşdırdıqları və institusional uyğunlaşmanı sistemli şəkildə həyata keçirdikləri üçün rəqəmsal imkanlardan daha yüksək səviyyədə faydalanırlar. Əksinə, bir çox inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrdə rəqəmsal infrastrukturun məhdudluğu, hüquqi harmonizasiyanın natamamlığı və insan kapitalının yetərsizliyi rəqəmsal ticarətə inteqrasiyanı ləngidir.

BMT-nin Ticarətin Asanlaşdırılması üzrə 2025-ci il Qlobal Sorğusunun yenilənmiş nəticələrinə əsasən, Avropa və Asiya-Sakit Okean regionlarının inkişaf etmiş ölkələrində rəqəmsal və kağızsız ticarət prosedurlarının tətbiq səviyyəsi

artıq 92–96% intervalında dəyişir. Eyni zamanda, az inkişaf etmiş ölkələrdə bu göstərici 40–50% səviyyəsində qalmaqdadır. Bu fərq rəqəmsal uçurumun xarici ticarət mühitində hələ də aktuallığını qoruduğunu nümayiş etdirir.

Bununla belə, ümumi qlobal dinamika müsbət xarakter daşıyır. 2022–2025-ci illər ərzində ölkələr üzrə rəqəmsal ticarət prosedurlarının orta tətbiq səviyyəsi təxminən 10–11 faiz-bənd artmışdır. Xüsusilə Sub-Sahara Afrikası və Yaxın Şərq–Şimali Afrika regionlarında ən yüksək irəliləyiş qeydə alınmış, müvafiq olaraq +14 və +13 faiz-bənd artım müşahidə edilmişdir. Bu göstəricilər inkişaf etməkdə olan ölkələrin də rəqəmsal ticarət sistemlərinə adaptasiya prosesini sürətləndirdiyini göstərir.

Beləliklə, 2025-ci il kontekstində qlobal rəqəmsal transformasiya iki paralel tendensiya nümayiş etdirir: bir tərəfdən rəqəmsal uçurum tam aradan qalxmamışdır, digər tərəfdən isə ölkələrin rəqəmsal ticarət mexanizmlərinə keçidi sürətlənmiş və rəqəmsallaşma beynəlxalq ticarətin struktur elementinə çevrilmişdir. Bu dinamika qlobal iqtisadi inteqrasiyanın gələcək trayektoriyasını müəyyən edən əsas amillərdən biri kimi qiymətləndirilə bilər.

Beləliklə, nəzəri və empirik ədəbiyyatın təhlili göstərir ki, rəqəmsal iqtisadiyyatın inkişafı xarici ticarət əlaqələrinin genişlənməsini və dərinləşməsini təmin edən mühüm amildir. Rəqəmsallaşma sayəsində ticarətin coğrafi sərhədləri əhəmiyyətini itirir, əməliyyatlar sürətlənir və yeni iştirakçılar üçün imkanlar yaranır. Bu meyllərdən geri qalmamaq üçün ölkələr müvafiq rəqəmsal infrastrukturu qurmalı, qanunvericiliyi yeniləməli və beynəlxalq əməkdaşlığı gücləndirməlidirlər. Növbəti hissədə Azərbaycan nümunəsi üzərində rəqəmsal transformasiyanın xarici ticarətə təsiri daha konkret təhlil ediləcəkdir.

## Azərbaycan təcrübəsi: rəqəmsal transformasiya və xarici ticarətin inkişafı

Azərbaycan dünyada gedən rəqəmsal transformasiya proseslərindən kənarda qalmayaraq son illərdə öz iqtisadiyyatında rəqəmsallaşma istiqamətində mühüm addımlar atmışdır. Ölkədə telekommunikasiya infrastrukturu təkmilləşdirilir, internetə çıxış imkanları genişlənir və elektron hökumət xidmətləri sürətlə inkişaf edir. Rəqəmsal iqtisadiyyatın inkişafı dövlət siyasətində də prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Xüsusilə, “2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın genişləndirilməsi” haqqında strateji sənədlər qəbul edilmiş, “Rəqəmsal Ticarət Qovşağı” təşəbbüsü çərçivəsində xarici investorlar və sahibkarlar üçün elektron rezidentlik və onlayn biznes qeydiyyatı imkanları yaradılmışdır. Bu kimi addımların əsas məqsədi Azərbaycanın qlobal rəqəmsal ticarət şəbəkəsinə inteqrasiyasını sürətləndirmək və qeyri-neft sektorunun ixrac potensialını artırmaq olmuşdur.

Ölkədə həyata keçirilən rəqəmsal islahatlar 2025-ci il etibarilə xarici ticarət əməliyyatlarının səmərəliliyinə daha aydın və ölçülə bilən müsbət təsir göstərməkdədir. Azərbaycan gömrük və sərhədkeçmə prosedurlarının elektronlaşdırılması sahəsində regionda lider mövqeyini möhkəmləndirmişdir. “Vahid pəncərə” sistemi artıq daha geniş funksionallıqla fəaliyyət göstərir və idxal-ixrac əməliyyatlarının vahid rəqəmsal platforma üzərindən inteqrasiya olunmuş şəkildə icrasını təmin edir. Gömrük bəyannamələrinin tam elektron qəbulu, risklərin avtomatlaşdırılmış idarəedilməsi modulu, real vaxt rejimində məlumat mübadiləsi və e-ödəniş mexanizmləri əməliyyat xərclərinin və vaxt itkisinin azalmasına səbəb olmuşdur.

2025-ci il üzrə yenilənmiş qiymətləndirmələr göstərir ki, Azərbaycanın ticarətin asanlaşdırılması və rəqəmsal prosedurların tətbiqi üzrə ümumi implementasiya səviyyəsi artıq 82–92% intervalında dəyişir. Xüsusilə “Vahid pəncərə” mexanizminin tətbiq səviyyəsi 92%-ə, e-gömrük və e-ödəniş sistemlərinin tətbiqi 85%-ə yüksəlmişdir. Elektron sənədlərin tanınması 78%-ə, kağızsız ticarət mexanizmlərinin tətbiqi isə 82%-ə çatmışdır. Bu göstəricilər Azərbaycanın rəqəmsal ticarət infrastrukturunun davamlı şəkildə gücləndiyini və beynəlxalq orta göstəriciləri üstələdiyini göstərir.

Elektron gömrük sisteminin funksionallığının genişləndirilməsi, mənşə, sanitariya və fitosanitar sertifikatların elektron mübadiləsinin artırılması, eləcə də rəqəmsal imzanın praktik tətbiq dairəsinin genişlənməsi xarici ticarət əməliyyatlarında şəffaflığı və operativliyi əhəmiyyətli dərəcədə artırmışdır. Rəqəmsal risk analizi mexanizmləri gömrük nəzarətinin selektivliyini gücləndirmiş, bu

isə həm təhlükəsizlik səviyyəsini yüksəltmiş, həm də qanuni ticarətin sürətini artırmışdır.

Beləliklə, 2025-ci il göstəriciləri sübut edir ki, rəqəmsal transformasiya artıq təkcə institusional modernizasiya deyil, həm də xarici ticarətin struktur və əməliyyat səmərəliliyini artıran sistemli iqtisadi alətə çevrilmişdir. Bu dinamika qeyri-neft ixracının genişlənməsi və Azərbaycanın regional rəqəmsal ticarət qovşağı kimi mövqeyinin güclənməsi baxımından strateji əhəmiyyət daşıyır

**Qrafik 1.**

**Azərbaycanda ticarət prosedurlarının rəqəmsallaşma səviyyəsi (2025)**




*Mənbə: [12], məlumatları əsasında müəllif tərəfindən hazırlanmış qrafik*

Qrafik 1-də 2025-ci il üzrə Azərbaycanın xarici ticarət prosedurlarında rəqəmsal həllərin tətbiq səviyyəsi təqdim olunur. Məlumatlara əsasən, “Vahid pəncərə” sisteminin tətbiq göstəricisi 92% təşkil etməklə ən yüksək rəqəmsallaşma səviyyəsini nümayiş etdirir. E-gömrük və e-ödəniş mexanizmləri 85% səviyyəsində reallaşdırılmışdır. Elektron sənədlərin tanınması 78%, kağızsız ticarət prosedurlarının tətbiqi isə 82% təşkil edir.

Bu göstəricilər Azərbaycanın xarici ticarət əməliyyatlarının rəqəmsal transformasiyasının dərinləşdiyini və 2025-ci il etibarilə regionda qabaqcıl mövqeyini daha da möhkəmləndirdiyini göstərir. Rəqəmsallaşma səviyyəsinin artması əməliyyat xərclərinin azalmasına, prosedurların sürətlənməsinə və qeyri-neft ixracının genişlənməsinə sistemli şəkildə töhfə verməkdədir.

**Cədvəl 1.**

**Seçilmiş ölkələr üzrə ticarətin rəqəmsallaşması indeksi (2025)**

| Ölkə | Rəqəmsallaşma indeksi (%) |
|---|---|
| Niderland | 98 |
| Cənubi Koreya | 96 |
| Səudiyyə Ərəbistanı | 94 |
| Özbəkistan | 92 |
| Hindistan | 90 |
| **Azərbaycan** | **87** |

*Mənbə: [12] əsasında müəllif tərəfindən yenilənmişdir.*

Cədvəldən göründüyü kimi, Azərbaycan 2025-ci ildə ticarət prosedurlarının rəqəmsallaşması üzrə indeksini 87%-ə yüksəldərək əvvəlki illə müqayisədə əhəmiyyətli irəliləyiş nümayiş etdirmişdir. Bu artım elektron gömrük sistemlərinin genişləndirilməsi, kağızsız ticarət mexanizmlərinin dərinləşdirilməsi və transsərhəd elektron sənəd mübadiləsinin genişlənməsi ilə əlaqədardır.

Bununla belə, Azərbaycan hələ də rəqəmsal ticarət üzrə qlobal liderlər hesab olunan Niderland və Cənubi Koreyadan müəyyən qədər geri qalır. Eyni zamanda, ölkənin göstəricisi region üzrə yüksək olaraq qalır və bir sıra MDB və Asiya ölkələrini qabaqlayır.

Özbəkistan və Hindistanla müqayisədə Azərbaycanın artım tempi daha dinamik olmuşdur ki, bu da son illərdə həyata keçirilən rəqəmsal gömrük və institusional islahatların effektivliyini göstərir. Ümumilikdə, 2025-ci il göstəriciləri Azərbaycanın MDB və Mərkəzi Asiya regionunda rəqəmsal ticarət mexanizmlərinin tətbiqi baxımından lider ölkələrdən biri kimi mövqeyini daha da möhkəmləndirdiyini təsdiq edir.

Azərbaycanın rəqəmsal iqtisadiyyat sahəsində əldə etdiyi nailiyyətlərdən biri də elektron

hökumət infrastrukturudur. Elektron hökumət portalı vasitəsilə sahibkarlıq fəaliyyəti, vergi, gömrük və digər biznes əməliyyatları üçün tələb olunan çoxsaylı xidmətlər onlayn rejimdə əlçatan olmuşdur. Bu, xarici ticarətlə məşğul olan iş adamlarına, xüsusilə də kiçik müəssisələrə əlavə rahatlıq və çeviklik təmin edir. Məsələn, xarici ticarət iştirakçıları idxal-ixrac icazələrini, lisenziyaları elektron qaydada ala bilir, sertifikatlar real vaxt rejimində təsdiqlənir ki, bu da vaxt itkilərini azaldır. Rəqəmsal imza və elektron sənəd dövriyyəsinin qanunvericiliklə tanınması nəticəsində beynəlxalq ticarət müqavilələrinin və göndərmə sənədlərinin rəsmiləşdirilməsi prosesləri də sadələşmişdir. Bütün bunlar Azərbaycanı regionda "rəqəmsal ticarət qovşağı"na çevirmək istiqamətində atılan addımların tərkib hissəsidir.

Bununla yanaşı, ölkənin rəqəmsal xarici ticarət potensialını tam reallaşdırması üçün qarşıda bəzi çağırışlar mövcuddur. İlk növbədə, internetin regionlar üzrə əlçatanlığında fərqlərin azaldılması və yüksək sürətli internet infrastrukturunun bütün ölkə boyu genişləndirilməsi vacibdir. Rəqəmsal iqtisadiyyatın inkişafı üçün keyfiyyətli internet bağlantısı və müasir telekommunikasiya şəbəkəsi əsas şərtdir. İkincisi, kadr potensialının gücləndirilməsi tələb olunur – rəqəmsal bacarıqlara malik işçi qüvvəsinin hazırlanması, İKT sahəsində təhsilin və təlimlərin artırılması həm yerli şirkətlərin rəqabət qabiliyyətini yüksəldəcək, həm də xarici investorlar üçün ölkəni cəlbedici edəcək. Üçüncüsü, kibertəhlükəsizlik məsələləri ön plana çıxır. Rəqəmsal ticarət sistemlərinin dayanıqlığı və məlumat mühafizəsi təmin edilməlidir ki, həm biznes, həm də istehlakçılar elektron mühitə etibar etsinlər. Azərbaycan hökuməti son dövrdə kibertəhlükəsizlik strategiyasını gücləndirmiş və beynəlxalq təcrübəni tətbiq etməklə kritik informasiya infrastrukturlarını qorumağa yönəlmiş addımlar atmaqdadır [3]. Bu istiqamətdə atılan addımlar rəqəmsal iqtisadiyyatın etibarlı əsaslar üzərində qurulmasına xidmət edəcək.

Azərbaycanın rəqəmsal transformasiya təcrübəsinin uğurlu olması üçün beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi də əhəmiyyətlidir. Ölkə, müxtəlif beynəlxalq platformalarda – məsələn, BMT-nin Ticarətin Asanlaşdırılması Sazişi, Dünya Ticarət Təşkilatının elektron ticarət üzrə müzakirələri və regional rəqəmsal iqtisadiyyat təşəbbüslərində – fəal iştirak etməklə qlobal trendlərə uyğunlaşır. Məsələn, Azərbaycanın Şərq Tərəfdaşlığı ölkələri ilə rəqəmsal sahədə əməkdaşlığı OECD tərəfindən aparılmış "Rəqəmsallaşma: Şərq Tərəfdaşlığı ölkələri" tədqiqatında da qeyd olunur [10] Burada vurğulanır ki, regional inteqrasiya, hüquqi harmonizasiya və birgə rəqəmsal layihələr Azərbaycanın rəqəmsal iqtisadiyyatının sürətlə inkişafına töhfə verə bilər.

Yekun olaraq qeyd etmək olar ki, Azərbaycan təcrübəsi göstərir: rəqəmsal transformasiya istiqamətində atılan addımlar xarici ticarət əlaqələrinin genişlənməsində mühüm rol oynayır. Ölkə son illərdə rəqəmsallaşma sahəsində əsaslı irəliləyiş əldə etməklə yanaşı, bu tendensiyanı davam etdirmək üçün müvafiq strateji hədəflər müəyyənləşdirib. Gələcəkdə rəqəmsal iqtisadiyyatın potensialından tam istifadə olunması Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və xarici ticarətin dayanıqlı inkişafı baxımından həlledici olacaqdır.

Aparılan təhlillər və müqayisələr iqtisadiyyatın rəqəmsallaşmasının xarici ticarət əlaqələrinin inkişafında müstəsna rol oynadığını göstərir. Rəqəmsal texnologiyaların tətbiqi hesabına beynəlxalq ticarət əməliyyatları sadələşir, sürətlənir və daha geniş aktorların iştirakı ilə həyata keçirilir. Məqalədə həm qlobal yanaşmalar, həm də Azərbaycan təcrübəsi əsasında belə qənaətə gəlinir ki, rəqəmsallaşma xarici ticarət üçün yeni üfüqlər açır. Əldə olunmuş nəticələr əvvəlki tədqiqatların qənaətləri ilə uyğunluq təşkil edir. Xüsusən, López-González və digərlərinin (2023) apardığı tədqiqatda vurğulandığı kimi, rəqəmsal əlaqəliliyin artması ticarət dövriyyəsini yüksəldir və rəqəmsal ticarət siyasətləri ticarətin həcminə müsbət təsir edir. Bu məqalənin tapıntıları da həmin tezisi dəstəkləyir: Azərbaycan misalında rəqəmsal həllərin tətbiqi (e-gömrük, e-ticarət platformaları və s.) xarici ticarətin səmərəliliyini artırmış və yeni bazarlara çıxışı asanlaşdırmışdır [7].

## Rəqəmsal ticarətin hüquqi və institusional çərçivəsi: beynəlxalq yanaşmalar və Azərbaycan təcrübəsi

İqtisadi münasibətlərin rəqəmsallaşması təkcə texnologiyanın tətbiqi ilə məhdudlaşmır. Əslində bu proses daha dərin, daha kompleks və hüquqi baxımdan dəqiq tənzimlənməli bir sahədir. Rəqəmsal ticarətin sürətlə artması fonunda bir sual

daha qabarıq şəkildə meydana çıxır: ölkələr bu yeni reallığı hüquqi və institusional baxımdan necə tənzimləyir?

Beynəlxalq təcrübəyə baxdıqda, ilk olaraq elektron sənədlərin və elektron imzanın hüquqi statusu məsələsi ön plana çıxır. Məsələn, BMT-nin UNCITRAL modeli çərçivəsində "Elektron ticarət haqqında" və "Elektron imza haqqında" model qanunlar bir çox ölkədə hüquqi baza kimi qəbul olunub. Bu sənədlər, xüsusilə transsərhəd əməliyyatlarda sənədlərin hüquqi tanınması üçün ortaq bir zəruri əsas yaradır. Eyni zamanda WTO çərçivəsində elektron ticarətin hüquqi normalara salınması istiqamətində də intensiv müzakirələr gedir. Belə ki, ticarətin rəqəmsal formaya keçidi ənənəvi müqavilə, ödəmə və logistika anlayışlarına yeni yanaşmalar tələb edir.

Azərbaycan bu kontekstdə qlobal trendlərlə paralel olaraq, öz hüquqi və institusional bazasını formalaşdırmağa başlayıb. Məlumdur ki, artıq uzun illərdir ölkədə "Elektron imza və elektron sənəd haqqında" qanun qüvvədədir və bu sənəd elektron əməliyyatların hüquqi əsasını təmin edir. İqtisadçı alimlərdən M. Həsənovun (2022) da qeyd etdiyi kimi, elektron imza sisteminin yaradılması və onun dövlət reyestrlərində tanınması Azərbaycanda rəqəmsal iqtisadiyyatın hüquqi strukturunun formalaşmasında dönüş nöqtəsi olub. Bu yanaşma xarici ticarət əməliyyatlarında, xüsusilə də gömrük və logistika proseslərində sənədlərin elektron formatda dövriyyəsinə imkan yaradaraq, həm vaxtı azaldır, həm də şəffaflığı artırır [4].

Ticarətin rəqəmsallaşmasına yönəlmiş digər mühüm təşəbbüs "Rəqəmsal Ticarət Qovşağı" layihəsidir. Bu təşəbbüs yalnız texniki bir platforma deyil, eyni zamanda hüquqi və inzibati çərçivənin də transformasiyasını nəzərdə tutur. İqtisadçı R. Quliyevin (2023) araşdırmasında göstərilir ki, bu qovşaq çərçivəsində xarici ticarətlə məşğul olan şirkətlər vahid portal üzərindən qeydiyyat, icazə, sertifikat və gömrük əməliyyatlarını rəqəmsal şəkildə icra edə bilirlər. Bu isə həm dövlətin nəzarət imkanlarını artırır, həm də sahibkarların prosesə çıxışını sadələşdirir [6]. Quliyev haqlı olaraq bildirir ki, hüquqi tənzimləmələr və texnoloji infrastruktur bir-birini tamamlamalıdır, əks halda rəqəmsal ticarətin genişlənməsi real nəticə verməyəcək.

Bununla yanaşı, bəzi mövcud hüquqi boşluqlar da göz önündədir. Məsələn, xarici ölkələrlə elektron sənədlərin qarşılıqlı tanınması hələ tam şəkildə tənzimlənməyib. Rəqəmsal imzaların xaricdə hüquqi qüvvəsinin tanınması məsələsi praktikada çətinliklər yaradır. Hüquq üzrə tədqiqatçı A. Məmmədovanın (2021) fikrincə, Azərbaycan bu istiqamətdə ikitərəfli və çoxtərəfli razılaşmaların aktiv iştirakçısı olmalı və transsərhəd hüquqi uyğunluq sahəsində addımlarını sürətləndirməlidir. Onun araşdırmasında göstərilir ki, rəqəmsal ticarətin uğurlu olması üçün yalnız daxili hüquqi çərçivə kifayət etmir, həm də beynəlxalq harmonizasiya vacibdir [8].

**Cədvəl 2.**

**Seçilmiş ölkələr üzrə rəqəmsal ticarətin hüquqi-institusional göstəriciləri (2025)**

| **Ölkə** | **Elektron imzanın hüquqi tanınması** | **Elektron gömrük sistemləri** | **Transsərhəd elektron sənəd tanınması** | **Rəqəmsal ticarət üzrə milli strategiya** |
|---|---|---|---|---|
| Estoniya | Bəli | Bəli | Bəli | Bəli |
| Sinqapur | Bəli | Bəli | Bəli | Bəli |
| Azərbaycan | Bəli | Bəli | **Qismən → Genişləndirilmiş** | Bəli |
| Qazaxıstan | Bəli | Bəli | Qismən | Bəli |
| Gürcüstan | Bəli | Bəli | Qismən | Qismən |

***Mənbə:** [10], [12], [13], əsasında müəllif tərəfindən yenilənmişdir.*

Digər tərəfdən, məlumat mühafizəsi və kibertəhlükəsizlik məsələləri rəqəmsal ticarətin hüquqi-institusional çərçivəsinin ayrılmaz tərkib hissəsi olaraq qalmaqdadır. Rəqəmsal ticarət əməliyyatlarının artması şəxsi və kommersiya məlumatlarının qorunmasına dair normativ mexanizmlərin effektivliyini daha da ön plana çıxarır. Beynəlxalq təcrübə göstərir ki, rəqəmsal ticarət sistemləri yalnız texnoloji baxımdan deyil, eyni zamanda hüquqi dayanıqlıq və institusional koordinasiya baxımından da möhkəm əsaslara söykənməlidir. Çünki məlumat sızmaları, kiberhücumlar və elektron sənədlərin hüquqi tanınması ilə bağlı problemlər yarandıqda,

müvafiq hüquqi mexanizmlərin operativ tətbiqi ticarət mühitinin etibarlılığı üçün həlledici əhəmiyyət daşıyır [12].

2025-ci il göstəriciləri göstərir ki, Estoniya və Sinqapur rəqəmsal ticarətin hüquqi və institusional tənzimlənməsi sahəsində qlobal lider mövqelərini qorumaqda davam edir və bütün əsas indikatorlar üzrə tam uyğunluq nümayiş etdirirlər. Bu ölkələrdə elektron imzanın beynəlxalq hüquqi tanınması, gömrük sistemlərinin tam elektronlaşdırılması və transsərhəd elektron sənədlərin qarşılıqlı hüquqi qüvvəsi vahid rəqəmsal arxitektura çərçivəsində təmin olunur.

Azərbaycan 2025-ci ildə hüquqi-institusional sahədə əlavə irəliləyiş əldə etmişdir. Elektron imza və elektron sənəd dövriyyəsi mexanizmləri tam tətbiq olunur, elektron gömrük sistemləri isə real vaxt rejimində risk idarəetməsi və məlumat inteqrasiyası ilə genişləndirilmişdir. Transsərhəd elektron sənədlərin tanınması sahəsində əvvəlki "qismən" status genişləndirilmiş mexanizmə keçid mərhələsindədir və bir sıra ölkələrlə qarşılıqlı tanınma razılaşmaları tətbiq olunmağa başlanmışdır.

Qazaxıstan 2025-ci ildə elektron gömrük sistemlərini daha geniş tətbiq etməyə başlamış və milli rəqəmsal ticarət strategiyasını gücləndirmişdir. Gürcüstan da hüquqi baza baxımından irəliləyiş göstərmiş, lakin transsərhəd sənədlərin tam tanınması istiqamətində hələ də məhdudiyyətlər qalmaqdadır.

Ümumilikdə, 2025-ci il məlumatları göstərir ki, Azərbaycan region daxilində hüquqi-institusional rəqəmsal ticarət mexanizmlərinin tətbiqi baxımından lider mövqelərdən birini qoruyur və qlobal standartlara inteqrasiya prosesini mərhələli şəkildə dərinləşdirir.

## Nəticə

Tədqiqatın nəticələrinə görə, Azərbaycan rəqəmsal transformasiya sahəsində bölgədə qabaqcıl mövqeyə yüksəlib və ticarətin rəqəmsallaşdırılması üzrə yüksək implementasiya faizi nümayiş etdirib. Bu, ölkənin apardığı siyasətin düzgün istiqamətdə olduğunu göstərir. Lakin eyni zamanda, qlobal liderlərlə müqayisədə boşluqların olduğu da aşkardır. Bu boşluqları aradan qaldırmaq üçün davamlı islahatlar, investisiyalar və insan kapitalına yatırım tələb olunur. Məqalədə müəyyən edilmişdir ki, rəqəmsal infrastruktura yatırımların davam etdirilməsi, hüquqi bazanın beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi və kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsi Azərbaycanın xarici ticarət potensialını tam reallaşdırması üçün vacib amillərdəndir. Bundan əlavə, rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində regional və qlobal əməkdaşlıq da mühüm rol oynayacaq – məlumat mübadiləsi, birgə layihələr və beynəlxalq təşəbbüslərdə iştirak ölkəyə qabaqcıl təcrübələri mənimsəməyə imkan verəcək.

Bu tədqiqatın yeniliyi ondan ibarətdir ki, burada Azərbaycan nümunəsində rəqəmsal iqtisadiyyatın xarici ticarətə təsiri həm nəzəri, həm də praktik aspektlərdən kompleks şəkildə təhlil edilmişdir. Əldə olunan nəticələr göstərir ki, rəqəmsallaşma ölkənin xarici ticarət diversifikasiyasına və qeyri-neft sektoru ixracının artımına müsbət təsir göstərir. Məqalədə ortaya qoyulan nəticələr mövzu üzrə əvvəlki araşdırmalarla ümumi ahəng təşkil etməklə yanaşı, bəzi istiqamətlərdə (məsələn, regional müqayisə prizmasında) əlavə töhfə verir.

Gələcək tədqiqatlar üçün bir neçə istiqamət təklif oluna bilər. Birincisi, rəqəmsal iqtisadiyyatın xarici ticarətə təsirinin kəmiyyətcə ölçülməsi dərinləşdirilməlidir – məsələn, panel məlumatlar əsasında modellər qurularaq internet penetrasiyası, mobil bankçılıq və ya elektron imzanın ixrac/idxal göstəricilərinə təsiri daha dəqiq qiymətləndirilə bilər. İkincisi, spesifik sektorlar üzrə (məsələn, kənd təsərrüfatı məhsulları, xidmət sektoru və s.) rəqəmsallaşmanın ticarətə təsiri ayrıca tədqiq oluna bilər ki, bu da daha hədəfli siyasət tövsiyələri hazırlamağa yardım edər. Üçüncüsü, rəqəmsal ticarətin sosial-iqtisadi təsirləri – məsələn, məşğulluq, istehlakçı davranışı, regionların inklüziv inkişafı baxımından öyrənilməsi də maraqlı olardı.

Nəticə etibarilə, rəqəmsal transformasiya tendensiyası geri dönməz xarakter almışdır və həm qlobal, həm də lokal konteksdə xarici ticarət əlaqələrinin gələcək inkişafını şərtləndirəcək əsas amillərdən biri olacaqdır. Azərbaycan bu sahədə indiyədək əldə etdiyi uğurları möhkəmləndirməklə və strateji istiqamətdə irəliləməklə, dünya iqtisadiyyatının rəqəmsal inteqrasiyasından maksimum fayda götürə bilər. Bu məqalədə aparılmış təhlil və verilən tövsiyələr isə həm elmi ictimaiyyət, həm də qərarvericilər üçün faydalı ola bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Aliyev İ. Elektron hökumətin inkişafı Azərbaycanda: nailiyyətlər və perspektivlər. Bakı: Rəqəmsal Transformasiya Mərkəzi, 2021, ss.1–48.
2. Duval Y., Prince N. & Utoktham C. (2024). Global survey on digital and sustainable trade facilitation 2024. UNESCAP & UNCTAD.
3. Guluzadə T. Development prospects of the digital economy in Azerbaijan. Porta Universorum, 2025, 1(7), pp.51–59.
4. Həsənov M. Rəqəmsal iqtisadiyyat və hüquqi tənzimləmə məsələləri. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu Elmi Əsərlər, 2022, 3(15), pp.44–53.
5. Qasımlı V., Talıbova M., Quliyeva G., Müseyibov A., Mirzəyev F., Qədəşov A. & Əhmədova G. (2023). Rəqəmsal iqtisadiyyat. Bakı: İqtisadiyyat Nazirliyi nəşri.
6. Quliyev R. Elektron ticarət və rəqəmsal xidmətlər: Azərbaycan modeli və inkişaf perspektivləri. Azərbaycan İqtisadi Araşdırmalar Jurnalı, 2023, 4(18), pp.71–82.
7. López-González J., Sorescu S. & Kaynak P. (2023). Of bytes and trade: Quantifying the impact of digitalisation on trade. OECD Trade Policy Paper No. 273. Paris: OECD Publishing.
8. Məmmədova A. Rəqəmsal hüquq mühitində beynəlxalq ticarət münasibətləri və normativ tənzimləmə. Bakı Dövlət Universiteti Hüquq Elmləri Jurnalı, 2021, 2(9), 59–67.
9. Negroponte N. (1995). Being digital. New York: Alfred A. Knopf. 243 p.
10. OECD. (2025). Digital trade policy and regulatory frameworks. Paris: OECD Publishing.
11. Tapscott D (1995). The digital economy: Promise and peril in the age of networked intelligence. New York: McGraw-Hill., p.1–60.
12. UNCTAD. (2025). Digital economy report 2024: Cross-border e-commerce and global trade. Geneva: United Nations Conference on Trade and Development.
13. World Bank. (2025). World development report 2024: Digitalization for inclusive trade. Washington, DC: World Bank.
14. WTO (2021). Adapting to the digital trade era: Challenges and opportunities. Geneva: World Trade Organization., p.1–115.

# THE IMPACT OF DIGITALIZATION OF THE ECONOMY ON THE DEVELOPMENT OF FOREIGN TRADE RELATIONS: AZERBAIJAN EXPERIENCE AND GLOBAL APPROACHES

**Rahima Nurali NURALIYEVA**
**Assoc. Prof., PhD in Economics**
Azerbaijan State Oil and Industry University

**Orkhan Emin ALİYEV**
Master's student, Azerbaijan State University of Economics
E-mail: orxan.aliyev2015.or@gmail.com

**Abstract:** The digitalization of the economy has become one of the key factors reshaping the dynamics of global trade in the modern era. This article analyzes the impact of economic digital transformation on the development of foreign trade relations. The research highlights the relevance of the topic, explores the theoretical foundations of the digital economy concept, and examines global trends that demonstrate the positive effects of digitalization on foreign trade. Global experience shows that the application of digital technologies reduces the costs of trade operations and creates new export opportunities through e-commerce and online platforms. This, in turn, transforms the competitive environment in global markets and facilitates the formation of more flexible economic structures. The article pays special attention to the experience of Azerbaijan: the impact of initiatives such as e-government, the Digital Trade Hub, and the "single window" system on the efficiency of foreign trade is evaluated. The analysis shows that Azerbaijan has achieved significant progress in the field of digital transformation and has reached high indicators in trade facilitation. Moreover, this process has also positively influenced the expansion of export opportunities in the non-oil sector. The improvement of the legal and technological foundations of the digital environment has also remained a focus. At the same time, the results are compared with findings from previous studies, and recommendations are provided for future research and policymaking.
**Keywords:** digital economy; digitalization; foreign trade; e-commerce; Azerbaijan; digital transformation; trade facilitation

# ВЛИЯНИЕ ЦИФРОВИЗАЦИИ ЭКОНОМИКИ НА РАЗВИТИЕ ВНЕШНЕТОРГОВЫХ ОТНОШЕНИЙ: АЗЕРБАЙДЖАНСКИЙ ОПЫТ И ГЛОБАЛЬНЫЕ ПОДХОДЫ

**Рахима Нурали НУРАЛИЕВА**
Кандидат экономических наук, доцент
Азербайджанский государственный университет нефти и промышленности

**Орхан Эмин АЛИЕВ**
Магистрант, Азербайджанский государственный экономический университет
E-mail: orxan.aliyev2015.or@gmail.com

**Резюме:** Цифровизация экономики стала одним из ключевых факторов, изменяющих динамику мировой торговли в современную эпоху. В данной статье анализируется влияние цифровой трансформации экономики на развитие внешнеторговых отношений. Исследование подчеркивает актуальность темы, исследует теоретические основы концепции цифровой экономики и рассматривает глобальные тенденции, демонстрирующие положительное влияние цифровизации на внешнюю торговлю. Мировой опыт показывает, что применение цифровых технологий снижает издержки торговых операций и создает новые экспортные возможности через электронную коммерцию и онлайн-платформы. Это, в свою очередь, трансформирует конкурентную среду на мировых рынках и способствует формированию более гибких экономических структур. В статье особое внимание уделяется опыту Азербайджана: оценивается влияние таких инициатив, как электронное правительство, Цифровой торговый центр и система «единого окна», на эффективность внешней торговли. Анализ показывает, что Азербайджан добился значительного прогресса в области цифровой трансформации и достиг высоких показателей в сфере упрощения торговых процедур. Более того, этот процесс также положительно повлиял на расширение экспортных возможностей в ненефтяном секторе. Совершенствование правовых и технологических основ цифровой среды также остается в центре внимания. При этом результаты сравниваются с выводами предыдущих исследований, и даются рекомендации для будущих исследований и разработки политики.

**Ключевые слова**: цифровая экономика; цифровизация; внешняя торговля; электронная коммерция; Азербайджан; цифровая трансформация; упрощение торговых процедур